# "Turizm haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə[1]

AZƏRBAYCAN RESPUBLİKASININ QANUNU

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 1-ci və 23-cü bəndlərini rəhbər tutaraq, "Turizm haqqında" Azərbaycan Respublikasının Qanununu Azərbaycan Respublikasının Miqrasiya Məcəlləsinə uyğunlaşdırmaq məqsədi ilə **qərara alır:**

"Turizm haqqında" Azərbaycan Respublikasının Qanununa (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1999, 7, maddə 394; 2004, 4, maddə 203, 6, maddə 396; 2007, 8, maddə 751) aşağıdakı məzmunda 7-1-ci maddə əlavə edilsin:

"Maddə 7-1. **Turizm vizası və turistlərə verilən elektron vizalar**

7-1.1. Azərbaycan Respublikasına gəlmək üçün viza tələb olunduğu hallarda turist kimi gələn əcnəbilər və vətəndaşlığı olmayan şəxslər Azərbaycan Respublikasının Miqrasiya Məcəlləsi ilə müəyyən olunmuş qaydada turizm vizası almalıdırlar.

7-1.2. Turizm vizasında ölkədə qalma müddəti 30 günədək müəyyən edilir.

7-1.3. Turizm vizasının rəsmiləşdirilməsi üçün səfərin turizm məqsədi ilə həyata keçirildiyini təsdiqləyən sənəd (turizm vauçeri və ya turizm yollayışı, yaxud sərnişin bileti və mehmanxanada, kempinqdə, turist bazasında və ya digər bu kimi obyektlərdə yer sifariş edilməsini təsdiqləyən sənəd) və Azərbaycan Respublikasının Miqrasiya Məcəlləsinin 36-cı maddəsində göstərilən sənədlər tələb olunur.

7-1.4. Azərbaycan Respublikasına gələn turistlər turizm şirkətləri vasitəsilə elektron viza ala bilərlər.

7-1.5. Elektron viza almaq üçün əcnəbilər və vətəndaşlığı olmayan şəxslər Azərbaycan Respublikasında fəaliyyət göstərən və müvafiq icra hakimiyyəti orqanında akkreditasiyadan keçmiş turizm şirkətlərinə birbaşa və ya yaşadıqları ölkələrdə həmin şirkətlərin tərəfdaşı olan turizm şirkətləri vasitəsilə müraciət edə bilərlər.

7-1.6. Turistlərə elektron vizaların verilməsi qaydası Azərbaycan Respublikasının Miqrasiya Məcəlləsi ilə tənzimlənir.".

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, 17 oktyabr 2014-cü il
1061-IVQD

## İSTİFADƏ OLUNMUŞ MƏNBƏ SƏNƏDLƏRİNİN SİYAHISI

1. 27 dekabr 2021-ci il tarixli **448-VIQ** nömrəli Azərbaycan Respublikasının Qanunu (**"Azərbaycan" qəzeti, 19 fevral 2022-ci il, 38 , Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2022-ci il, 2, maddə 88**)

## QANUNA EDİLMİŞ DƏYİŞİKLİK VƏ ƏLAVƏLƏRİN SİYAHISI

[1] 27 dekabr 2021-ci il tarixli **448-VIQ** nömrəli Azərbaycan Respublikasının Qanunu (**"Azərbaycan" qəzeti, 19 fevral 2022-ci il, 38 , Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2022-ci il, 2, maddə 88**) ilə ləğv edilmişdir.